

## ESMİRA GÜNƏŞ

### *TALEYİN DÜYÜNÜ*

Üşümürəm, həsrətinin nisgili
Ürəyimə isti düyün vurubdu,
Kələfinə arzuları bağladım
Xəyalların gözlərimdə durubdu.

Sürətini naxış çəkib elə bil,
Gözlərimə məhəbbətin fırçası.
Səndə qalıb daha mənim deyil ki,
Bu sinəmdə ürəyimin parçası.

Düyün düşsün taleyinə, taleyim,
Fələk məni sənsizliyə atmasın.
Bu düyünü bircə-bircə açmağa.
Ayrılığın səbri belə çatmasın.

### *RÜTUBƏT QOXUYAN DİVAR*

Bu gecə bir evdə qonaq olmuşam,
Divardan rütubət iyi gəlirdi.
O qədər balaca, baxımsız idi,
Gözlərdən birbaşa ürək dəlirdi.

Yoxsulluq zamana hökm kəsilib,
Bir ailə sığınıb bu dar qəfəsə.
İki körpə bala əriyir şam tək,
İndi möhtac olub təmiz nəfəsə.

Dağılıb boyası, daşlar görsənir,
Bu körpə arada daş yeyir bəlkə.
Ata göz yaşını atır qəlbinə,
Ana dərdlərini deyir ki, bəlkə.

Gün gələr sevinər onun da qəlbi,
Çox deyil, bir otaq evləri olar.
Körpə balaları sağlam böyüyər,
Ananın qəlbinə sevinc də dolar.

### *QAYTAR, VER MƏNİM BALAMI*

Boş qalıbdı yorğan-döşək,
Deyirdik ki, sağ dönəcək.
Vallah burda üşüyəcək,
Qaytar, ver mənim balamı.

Arzularım, yarım qaldın,
Əcəl, məndən oğul aldın.
Balamamı meyil saldın,
Qaytar, ver mənim balamı.

Hələ toyun edəcəkdim,
Mən də gəlin görəcəkdim.
Əvvəl özüm öləcəkdim,
Qaytar, ver mənim balamı.

Torpaq, yansın bağrın sənin,
Parçalansın bağrın sənin.
De, balamdan nə istədin?
Qaytar, ver mənim balamı.

Yağ, ey yağış, yu torpağı,
İstəmirəm yaşamağı.
Necə deyim indi ağı,
Qaytar, ver mənim balamı.

Qaytar, qurban olum torpaq,
Axı göndərdim balamı sağ.
Gəl sinəmə çəkmə sən dağ,
Qaytar, ver mənim balamı.